# Regionların sosial-iqtisadi inkişafı dövlətin qüdrətlənməsinə xidmət edir

**Dövlət proqramları haqqında danışarkən ilk növbədə Prezident İlham Əliyevin siyasi uzaqgörənliyi, lider müdrikliyi, vətəndaş məsuliyyəti və milli təəssübkeşliyi yada düşür. Çünki elmi şəkildə əsaslandırılmış, peşəkar mütəxəssislər tərəfindən hazırlanmış və prinsipiallıqla icra olunmuş həmin dövlət proqramlarının hər biri müstəqil Azərbaycanın hərtərəfli inkişafında özünəməxsus rol oynamışdır.**

***Yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və qeyd etdiyim kimi, 2 milyon iş yeri yaradılıb. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür. Kənd təsərrüfatı 1,7 dəfə artıb və əminəm ki, bundan sonra artım daha sürətli olacaq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

2004-cü ilin fevral ayında bu istiqamətli ilk Dövlət Proqramı təsdiq ediləndə (əslində, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi Baş nazir İlham Əliyevin 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyi vədlərdən biri idi) orada göstərilən bəndlərin bir çoxu kimlərəsə çətin həll olunacaq məsələ kimi görünmüşdü. Bunu dövlət başçımızın özü də bir neçə dəfə yada salıb. Ancaq proqramın icrası zamanı məlum oldu ki, Azərbaycan dövləti üçün çətin həll ediləcək heç bir iş yoxdur. Sonrakı analoji proqramlar təsdiq ediləndə isə artıq heç kəs nəyinsə mümkün olub-olmadığı barədə danışmadı. Çünki qazandığımız təcrübə hamının gözünün qabağında idi.

Kütləvi informasiya vasitələri təmsilçilərinin mütəxəssis və politoloqlara ünvanladığı "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları Azərbaycan dövlətinə və xalqına hansı səmərəni verib?" – sualına ekspertlərin hərəsi təxminən on-on beş istiqamətdə cavab verir. Yəni bir çox istiqamətlər fərqli olur. Amma altı-yeddi istiqamət var ki, ekspertlərin hamısı öz cavabında həmin məsələləri daha tez yada salırlar. Bunlar yüz minlərlə yeni iş yerlərinin yaradılması, müasir yol infrastrukturunun formalaşdırılması, yeni sənaye və emal müəssisələrinin açılması, aqrar sektorun inkişafı, regionlarda çoxsaylı təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin tikilib istifadəyə verilməsi, mövcud müəssisələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhaliyə göstərilən xidmətlərin səviyyəsinin qaldırılması, bölgələrin turizm potensialından daha səmərəli şəkildə istifadə edilməsi yollarının tapılması və başqa məsələlərdir.

Təbii ki, bu istiqamətlərin hər birində qazanılmış nailiyyətlər haqqında həm dövri mətbuatda, həm Prezident Kitabxanasının elektron resurslarında, həm dövlət başçımızın özünün və ayrı-ayrı nazirliklərin saytlarında, həm də Dövlət Statistika Komitəsinin müvafiq hesabatlarında kifayət qədər material vardır. Ancaq həmin mənbələrin hamısı mötəbər olsa da, biz bu yazıda cənab Prezidentin öz dilindən səsləndirilən faktlara və rəqəmlərə istinad etmək istəyirik. Belə ki, yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda geniş nitq söyləyən Prezident həm üçüncü dövlət proqramının, həm də, ümumiyyətlə indiyədək icra olunmuş hər üç dövlət proqramının nəticələri barədə fəxrlə söz açdı.

Prezidentin ilk arqumenti bundan ibarət oldu ki, beş il bundan əvvəl qəbul edilmiş proqram artıqlaması ilə yerinə yetirilmişdir: "Son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu. Üçüncü proqramın çox böyük əhəmiyyəti var. Bu proqram bizə imkan yaratdı ki, regionlarda əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verək".

Prezidentin ikinci arqumenti isə yuxarıda qeyd etdiyimiz kimi, son beş ilin deyil, 15 ilin – yəni hər üç dövlət proqramının icra edildiyi dövrün sosial-iqtisadi inkişafının göstəricilərinin yada salınması idi: "Görülmüş işlər haqqında danışanda, əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni, bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır".

Xatırladaq ki, dövlət başçımızın dediyi kimi , son 15 il ərzində ölkəmizdə 2 milyon yeni iş yeri yaradılmışdır. Bu faktın indi dilə gətirilməsi çox asandır. Ancaq son 15 ildə dünyada və bizim regionda baş verən ictimai-siyasi prosesləri, münaqişə və qarşıdurmaları, maliyyə və iqtisadi böhranları, təbii və texnogen kataklizmləri, xüsusən gənc müstəqil dövlətimizin zorən cəlb edildiyi müharibə vəziyyətində olduğunu yada salanda, 15 ildə 2 milyon yeni iş yeri yaradılmasının nə qədər ağır bir vəzifə olduğu barədə təsəvvür yaranır. Xatırladım ki, yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və həmin proqramların icrası zamanı yaradılan yeni iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür.



Dövlət proqramlarının icrasının regionlara verdiyi səmərə barədə danışan ekspertlər ikinci istiqamət kimi yeni yol infrastrukturunun yaradılmasını qeyd edirlər. Burada da faktlar göz qabağındadır. Məsələn, son 15 ildə 15 min kilometr avtomobil yolu çəkilmişdir və bu proses davam etdirilir. Bu il üçün təsdiq edilmiş Dövlət İnvestisiya Proqramına əsasən, yüzlərlə kəndin yolları abadlaşdırılacaq, o cümlədən magistral yolların tikintisi təmin ediləcək. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yerdədir. Fikrimizcə, ildə təxminən min kilometr yolun çəkilməsi və 200 ölkə arasında avtomobil yollarının keyfiyyətinə görə 34-cü yerə çıxmaq Azərbaycan kimi gənc müstəqil dövlət üçün misilsiz uğurdur.

Regionların inkişafını göstərən əsas istiqamətlərdən biri də bütün kənd rayonlarını əhatə edən tikinti-quruculuq və abadlıq işlərinin miqyasının gündən-günə genişlənməsidir. Prezident məmnunluqla qeyd edir ki, bu proses növbəti illərdə nəinki davam etdiriləcək, hətta genişləndiriləcək: "Baxmayaraq ki, 3272 məktəb tikilib və təmir edilib. Bu məktəblər mövcud məktəb fondunun 73 faizi deməkdir. Ancaq təmirə ehtiyacı olan məktəblər var və bu işlər də növbəti dövlət proqramında nəzərdə tutulacaq. Həmçinin xəstəxanaların, Olimpiya komplekslərinin tikintisi davam etdiriləcək. Təkcə bu il üç Olimpiya Kompleksinin açılışı gözlənilir. Bu da bölgələrdə idmanın inkişafına xidmət göstərir".

Azərbaycan dövlətinin regionları inkişaf etdirmək üçün atdığı mühüm addımlardan biri də əvvəllər sırf aqrar rayon kimi tanınan bölgələrin sənayeləşdirilməsidir. Bu gün artıq ölkədə elə bir rayon yoxdur ki, orada yeni sənaye müəssisəsi fəaliyyətə başlamasın. Prezidentin fikrincə, sənaye potensialının inkişafı üçün sənaye zonalarının, sənaye parklarının çox böyük rolu var. Bu sahədə görülən və görüləcək işlər ölkəmizin qeyri-neft sektorunun inkişafını təmin edəcək, qeyri-neft ixracının həcmini böyük dərəcədə artıracaq.

Dövlət başçımız xatırladır: "Əlbəttə ki, sənaye sahəsində bizim diqqətimiz, eyni zamanda, qeyri-neft sektoruna yönəlib. Bu sahədə də yaxşı nəticələr var. Keçən il qeyri-neft sənayemiz 9,1 faiz artıb. Bu, onu göstərir ki, həmin sahədə işlər yüksək səviyyədə aparılır. Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin yaradılması bu sahədə atılan çox ciddi addımlardır. Gələcəkdə digər şəhərlərdə də sənaye zonaları yaradılacaqdır".

Heydər Əliyev siyasi müdrikliyinin bütün incəliklərini dərindən əxz etmiş Prezident İlham Əliyevin regionlarla bağlı həyata keçirdiyi istənilən layihənin üç-dörd, bəzən beş-altı istiqamətdə səmərəsini görürük. Məsələn, məhz İlham Əliyevin təşəbbüsü ilə bölgələrdə yeni xalça fabrikləri açılır. İstənilən rayonda açılan xalça fabrikinin səmərələrini saymaq istəsək, böyük bir siyahı yaranır: İşsizliyin azalmasına kömək edilir, maddi-mədəniyyət nümunəmiz olan xalçaçılıq ənənəsi yaşadılır. Hər bir xalçanın üzərində istehsal edildiyi rayonun adı toxunulur ki, bu da maddi-mədəniyyət nümunələrimizi oğurlayan bədnam qonşularımızın imkanını azaldır. Qoyunçuluğun inkişaf etdirilməsinə stimul yaranır, yerli resurslardan boyaq hazırlayan sənətkarların fəaliyyəti genişlənir, ayrı-ayrı mütəxəssislərin və rayonun büdcəsinə əhəmiyyətli dərəcədə valyuta gəlir və sairə.

Bu məsələ barədə dövlət başçımızın dedikləri isə daha geniş informasiya ala bilməyimiz baxımından xüsusi əhəmiyyət kəsb edir: "Biz son vaxtlar ənənəvi xalçaçılıq sənətinin inkişafı ilə bağlı çox ciddi iş aparırıq. Artıq 20 xalça fabriki fəaliyyətdədir. Hər fabrikdə orta hesabla 100, yaxud 150 iş yeri yaradılır, xüsusilə qadınlar üçün. Mən fabriklərin əksəriyyətinin açılışlarında iştirak etmişəm və görmüşəm ki, buna nə qədər böyük ehtiyac var. Bu, qadınları işlə təmin etmək, qədim milli sənətimizi yaşatmaq üçün çox düşünülmüş bir addımdır. Bütövlükdə isə bizdə 31 xalça fabrikinin tikilməsi nəzərdə tutulur və burada təqribən 5 minə yaxın iş yeri açılacaq. Bu il Sumqayıt şəhərində əyirici boyaq fabrikinin açılışı gözlənilir. Beləliklə, biz artıq xalça istehsalında xarici xammaldan asılılığı aradan götürəcəyik".

Sonda qeyd edək ki, dövlətimizin və dövlət başçımızın Azərbaycan regionlarının sosial-iqtisadi inkişafını təmin etmək üçün atdığı bütün addımlar öz müsbət nəticələrini verir. Həmin proqram və layihələrin hamısının böyük uğur qazanmasının isə iki səbəbi vardır. Birinci səbəb həmin proqramların elmi şəkildə əsaslandırılmasıdırsa, ikinci səbəb xalqın, ölkə əhalisinin öz dövlətinə və dövlət başçısına olan inam və etimadıdır.

***Elmira ZEYNALOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin dekanı, dosent***